| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL 512 Frazeologiyanın üslubi imkanları<br>3 kredit, 6 AKTS |
| | **Departament** | Dillər və ədəbiyyatlar |
| | **Proqram (bakalavr, magistr)** | Magistratura |
| | **Tədris semestri** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Dos. Sevinc Ağayeva |
| | **E-mail:** | Sevinj.Aghayeva@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | |
| | **Konsultasiya vaxtı** | Magistrlarla razılaşdırılmış vaxtda |
| **Prerekvizitlər** | Yoxdur | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı. 1978<br>2. İ.Süleymanova. Poetik frazeologiyanın semantik isiqamətləri. Bakı, 2019<br>3. M.Hüseynov. Poetik frazeologiya. Bakı. 2013<br>4. Q.Mahmudova. Türk dillərinin frazeologiyası. Bakı, 2009<br>5. B.Xəlilov. Müasir Azərbaycan dili. Bakı. 2008<br>6. Seyidəliyev, N.F. Frazeologiya lüğəti / N.F. Seyidəliyev. –Bakı: Çıraq, –2004.<br>Əlavə ədəbiyyat:<br>1. Mirzəliyeva, M.M. Türk dillərinin frazeologiyası / M.M. Mirzəliyeva. – Bakı: Nurlan, – 2009.<br>2. Kərimova S.T. Azərbaycan dilində sintaktik frazeoloji konstruksiyaların üslubi imkanları haqqında // Ulu Öndərin anadan olmasına həsr olunmuş Ulu Öndər H.Əliyev irsində multikutural və tolerant dəyərlər beynəlxalq elmi konfransın materialları. II hissə. – Bakı: Mütərcim. – 2016, 3-5 may, – s. 75-78<br>3. Qurbanov A. Müasir Azərbaycan ədəbi dilinə dair praktikum. II cilddə, II cild. Bakı: 2019<br>4. M.Məmmədli. Azərbaycan dialektologiyası. Bakı-2019<br>İnternet resursları:<br>5. http://anl.az/el/m/mq_tdf.pdf<br>6. http://www.anl.az/el/Kitab/2013/Azf-271960.pdf<br>7. http://buludxan-xelilov.com/pdf/leksikologiya.pdf<br>8. https://www.sdu.edu.az/userfiles/K%C9%99rimova%20Sevinc%20AAK%20%C3%BC%C3%A7%C3%BCn%20dissertasiya.pdf | |

| | | |
|---|---|---|
| **Tədris metodları** | Mühazirə | + |
| | Qrup müzakirəsi | + |
| | Praktiki tapşırıqlar | + |

| | | | |
|---|---|---|---|
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Mətnlər üzərində iş və praktik tapşırıqlar | | 10+10 |
| | Final imtahanı | | 40 |
| | Davamiyyət | | 5 |
| | Yekun | | 100 |

| | |
|---|---|
| **Kursun təsviri** | Frazeoloji ifadələrin üslubi imkanları sözün ifadə edə biləcəyi dərin mətnaltı mənaları üzə çıxarmağa kömək edir. Sözün sehrini açmaqla poetik mətni təşkil edən ilkin dil materiallarından biri kimi frazeoloji vahidlərin adi danışıq, məişət-ünsiyyət funksiyasından fərqli olduğunu müəyyənləşdirmiş olacağıq. Sabit söz birləşmələri üslubi tapıntılar üçün həmişə etibarlı bünövrə rolunu oynayır. Obrazlı deyim mühitinin yeni-yeni çalarlar da təzahür etməsi, ürəyəyatan üslubi məna rəngləri qazanması frazeoloji dil materiallarının rəngarəng, üslubi keyfiyyətlərini təzahür etdirir. |
| **Kursun məqsədləri** | Frazeologiya dildə ən çətin mənimsənilən laydır. Dildəki frazeoloji vahidlər dilin daşıyıcısı olan xalqın tarixi, adət-ənənəsi, psixologiyası və düşüncə tərzinin ifadəçisi olduğundan hər hansı xalqın dilindəki frazeoloji vahidlərin linqvistik araşdırılması, nəticədə, həmin xalqın tarix və etnoqrafiyasının, həyat və yaşayış tərzinin öyrənilməsinə gətirib çıxarır. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursu tamamlayan tələbələr öyrənəcəklər:<br>1. Azərbaycan dili frazeologiyasının nəzəri əsasları ilə tanış olunacaq.<br>2. Dövrün poeziyası əsasında frazeoloji birləşmələrin hansı üslubi çalarda işləndiyi müəyyənləşdiriləcək<br>3. Frazeoloji vahidlərin komponentlərinin leksik cəhətdən araşdıraraq onların əsas əlamətlərini, model və tiplərini təyin ediləçək<br>4. Frazeoloji sinonimlik və antonimlik nümunələr əsasında tədqiq olunacaq<br>5. Şairlərin üslubi ilə bağlı təhlillər aparılacaq |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Fənnin tədrisi zamanı verilən ballara aydınlıq gətirsək;<br><br>**Aralıq imtahanı – 30** imtahanda tələbələrin biliyi test tapşırıqları və sual nümunələri vasitəsilə yoxlanılır.<br>**Fəallıq – 5** Fəallığa görə veriləcək 5 bal tələbənin müzakirələrdə iştirakına, praktik tapşırıqların yerinə yetirilməsində göstərdiyi fəallığa, əlavə ədəbiyyatlara göstərdiyi marağa, semestr boyu hazırladıqları təqdimatlara (prezentasiyalara), fərdi yaradıcılığa görə veriləcəkdir. Fəallığa görə bal tələbənin müzakirələrdə iştirakına, sorğu zamanı daha fəal cavab verməsinə, nitq mədəniyyəti səviyyəsinə, yadda saxlama və yada salma kimi vərdişlərə malik olmasına, mətn təhlilində göstərdiyi fəallığa, semestr boyu həftəlik dərs proqramına hazırlaşmasına, yeni və əlavə ədəbiyyatlara göstərdiyi marağa görə veriləcəkdir.<br>**Mətnlər üzərində iş və praktik tapşırıqlar – 10+10** Mətnlər üzərində işə görə 10 bal, praktik tapşırıqlara görə 10 bal nəzərdə tutulur. Müəyyən edilən bal aralıq və final imtahanlarından əvvəl yerinə yetirilmə dərəcəsinə görə təyin ediləcəkdir. Mətnlər üzərində iş və praktik tapşırıqlara görə bal verilən zaman tələbənin nəzəri bilikləri necə mənimsədiyi, bu biliklərin təcrübi olaraq mətnlər üzərində tətbiqetmə dərəcəsi, əsasən də fərdi yanaşması diqqət mərkəzində olacaq və semestr boyu müşahidə edilərək nəzərə alınacaqdır.<br>**Final imtahanı – 40** İmtahanda həm klassik suallar, həm də test tapşırıqları veriləcəkdir.<br>**Davamiyyət – 5** Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və təlim prosesində özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzrsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılacaqdır.<br><br>**İmtahan haqqında**<br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyat, o cümlədən əlavə mənbələrə də müraciət etmək lazımdır. |

| | | | |
|---|---|---|---|
| | | 2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir.<br>3. Aralıq və Final imtahanlarının hər ikisində sullar test və klassik ola bilər. | |
| | | **Cədvəl** | |
| | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1 | | Frazeologiyanın ümumi nəzəri məsələləri | H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı. 1978. 5-27.ş |
| 2 | | Frazeoloji vahidlərin dildəki yeri. Yaranma və inkişaf mərhələləri | Q.Mahmudova. Türk dillərinin frazeologiyasıs.27<br>M.Hüseynov. Poetik frazeologiya.s. 24 |
| 3 | | Azərbaycan dili frazeologiyasının mənbələri<br>Atalar sözü, idiomlar və rəvayətlərin frazeologiyaya münasibəti | H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. s. 34-49<br>H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları.s.53 |
| 4 | | Sabit söz birləşməsi və frazeoloji vahid. | H.Bayramov. Azərbaycan dili frazelogiyasının s. 53 |
| 5 | | Feili frazeoloji vahid və mürəkkəb feil məsələsi | H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları.s.55 |
| 6 | | Frazeoloji birləşmələrin bədii təsvir və təsir imkanları<br>Müstəqil iş | Q.Mahmudova. Türk dillərinin frazeologiyası. s.27 |
| 7 | | Poeziya dilində ismi frazeoloji vahidlərin üslubi imkanları :I, II III növ ismi birləşmə modelində formalaşmış üslubi frazeoloji ifadələr | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. S. 16-69 |
| 8 | | **Aralıq imtahanı.**<br>Seir dilində frazeoloji birləşmələrin aktuallaşması | M.Hüseynov. Poetik frazeologiya .s.89 |

| | | | |
|---|---|---|---|
| 9 | | Azərbaycan poeziya dilində feili frazeoloji ifadələrin üslubi imkanları | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. S.114 |
| 10 | | Coğrafi söz terminlər əsasında formalaşmış üslubi feili frazeoloji ifadələr | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. S.151 |
| 11 | | Üslubi frazeoloji ifadələrin semantik xüsusiyyətləri | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. S. 257. |
| 12 | | Dialekt frazeologiyası<br>Müstəqil iş | M.Məmmədli. Azərbaycan dialektologiyası.s.292 |
| 13 | | Sinonim və antonim frazeoloji ifadələr. | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. S.258-276 |
| 14 | | Adlardan ibarət sinonim frazeoloji ifadələr | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. s.260 |
| 15 | | Feili sinonim frazeoloji ifadələr | İ.Süleymanlı. Poetik frazeologiyanın semantik istiqamətləri. s. 268 |
| | | **Final imtahanı** | |

Təsdiq edirəm:

dos. Dilbər Zeynalova

Dillər və ədəbiyyatlar deparamentinin müdiri